# Qarabağ müharibəsi təsviri sənətdə



**Ziyadxan Əliyev**

Bəzən tarixi hadisələrin mahiyyətini isti-isti bədii-estetik süzgəcdən keçirib yaddaqalan əsər yaratmaq çətin olsa da, bu gün də Qarabağ probleminin çözülmədiyi bir şəraitdə Azərbaycanın təsviri sənət ustaları xalqının tuş gəldiyi bu müharibəyə öz münasibətlərini bildirməkdədirlər. Ötən əsrin səksəninci illərində mitinqlərdən başlayıb qanlı döyüşlərə keçən Qarabağ probleminə sənətkarlarımızın bədii münasibəti heç şübhəsiz ilk növbədə onların yaşadıqları dövrün aynası olmaq istəyindən irəli gəlmişdir. Belə ki, hadisələrin bilavasitə iştirakçısı olan, torpaq uğrunda gedən ölüm-dirim mübarizəsinə şahidlik edən sənətkarların rəngə və cizgiyə, eləcə də daşa, mərmərə və tunca köçürdüklərində başqalarında baş verənlərə inam yaradacaq bədii-mənəvi güc daha etibarlı olur...

Əslində ermənilərin torpaq iddiasından qaynaqlanan və "Dənizdən-dənizə" kimi sərsəm planın tərkib hissəsi olan Qarabağ probleminin bədii görkəm almasının tarixi hələ XX əsrin əvvəllərindən başlanır. O vaxt İrəvan xanlığındakı dədə-baba torpaqlarından didərgin salınmış soydaşlarımızın Naxçıvana pənah aparmalarına görkəmli fırça ustası Bəhruz bəy Kəngərli (1892-1922) şahidlik etmişdi. Onlara imkanı çərçivəsində onlara maddi qayğı göstərən gənc rəssam baş verənlərin tarixi-bədii sənədə çevrilməsi istiqamətində əvəzsiz bir iş görmüş, ağır vəziyyətdə olmuş insanların taleyinə həsr olunmuş "Qaçqınlar" adlı rəsmlər silsiləsi yaratmışdı. Öz-özlüyündə erməni vəhşiliyinə danılmaz dəlil olan bu tarixi rəsmlərdən Qarabağ probleminin sonuncu dəfə alovlanması ilə əlaqədar aparılan ermənilərin ifşaetmə təbliğatında bu vaxta kimi istifadə olunması heç cür başa düşülən deyil...

Qanlı-qadalı faciələrimizə B.Kəngərli tərəfindən XX əsrin əvvəllərində tutulan "bədii güzgü"nün davamı elə həmin əsrin sonlarında oldu. 1992-ci ilin fevralında yaşanan ölçüyəgəlməz Xocalı faciəsi hamı kimi Azərbaycanın fırça və tişə ustalarını sözün əsl mənasında dilə gətirdi, desək, yanılmarıq. Həmin günlərdə telejurnalist Çingiz Mustafayevin faciəni əks etdirən kadrlarının televiziya ekranda nümayişi isə tanınmış cizgi filmləri rəssamı Nazim Məmmədovun (1934-2004) yuxusunu ərşə çəkdi. Gecə-gündüz bu faciənin dəhşətlərinin yaratdığı təzadlı yaşantılara bələnən rəssam çox qısa müddətdə çoxsaylı rəngkarlıq və qrafika əsərləri yaratdı. Sayı əlliyə çatan bu əsərlər faciənin 10 illiyi günlərində Azərbaycan Milli İncəsənət Muzeyində rəssamın "Xocalı harayı" adlanan fərdi sərgisində nümayiş etdirildi, Sərgi sonu iki ildən sonra dünyasını dəyişəcək rəssam tamaşaçıların böyük marağına səbəb olan həmin işləri elə onların nümayiş olunduğu muzeyə hədiyyə etdi.

Tanınmış heykəltəraş, respublikanın xalq rəssamı Xanlar Əhmədov isə sonralar "Əsrin faciəsi" kimi dəyərləndiriləcək, məşhur Xatın dəhşətinə bərabər tutulacaq Xocalı qətliamına bədii münasibətini elə hadisənin ilk ildönümündə sərgilədi. O, bir il ərzində bütün digər yaradıcı işlərini kənara qoyaraq Xocalı mövzusunda bədii cəhətdən çox tutumlu sayıla biləcək əsərlər yaratdı. Müxtəlif materiallarda gerçəkləşən 25 heykəltəraşlıq kompozisiyasında faciənin çox maraqlı plastik həllini görmək mümkündü.

Xocalı faciəsinə həsr olunmuş təsviri sənət əsərlərindən söz açanda tanınmış rəssam Vaqif Ucatayın elə hadisənin baş verməsindən az sonra işlədiyi "Xocalı" plakatının adını xüsusi qeyd etmək lazımdır. Yaradıldığı gündən dünyanı dolaşan bu əsər bəlkə də Xocalı faciəsinin obrazını əks etdirən ən təsirli sənət nümunəsidir. Plakatın tələblərinə uyğun çox yığcam detallardan ibarət olan əsərdə sinəsinə xəncər sancılmış körpə və "Xocalı. 1992" sözləri yer almışdır. Qanına qəltan olunmuş körpə təsvirinin doğurduğu nifrəti sözlə ifadə etmək bəlkə də mümkünsüzdür. Belə sənət əsərinin qarşısında tamaşaçının da biganə qalmayacağı birmənalıdır.

Rəssam "Bax! Gör! Unutma!" adlı qrafik silsiləsini müharibənin dəhşətli hadisələrinə şahidlik etmiş insanların söylədikləri əsasında işləmişdir. Odur ki, reallığına şübhə olunmayan əsərlər həm də tarixi-bədii sənəd mahiyyəti daşıyır. Rəssam fırçasının qüdrəti ilə reallaşan bu təsvirlərdə erməni vandalizminin nəhayətsizliyi çox təsirli və inandırıcıdır...



Qarabağ müharibəsinə öz yaradıcılığında geniş yer verən rəssamların sırasında respublikanın əməkdar rəssamı Adil Rüstəmovun adını çəkmək lazımdır. Onun 2010-cu ildə təşkil olunmuş "Qarabağ şikəstəsi" adlı sərgisində nümayiş olunan otuza qədər qrafik lövhədə mövzu həllinin cizgilərin emosionallığına köklənməsi əsərlərin təsirliliyini şərtləndirmişdir. Rənglərin kədər çalarlarına tapınan kompozisiyalar olub-keçənlərə bədii ağı kimi qəbul olunurlar...

Müstəqillik illərində xalqın tuş gəldiyi Qarabağ müharibəsinə ayrı-ayrı rəssam və heykəltəraşların fərdi münasibətinin baş tutması ilə yanaşı, respublikada bütün yaradıcı qüvvələri bu mövzuya cəlb edəcək müsabiqə-sərgilər də təşkil olunmuşdur. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Azərbaycan Rəssamlar İttifaqının birgə təşkil etdikləri sənət yarışmasının Xocalı faciəsinə həsr olunması da bunun göstəricisidir. 2011 və 2012-ci illərdə keçirilən müsabiqə-sərgidə respublika təsviri sənət ustalarının bu mövzu ilə bağlı nümayiş etdirdikləri əsərlər göstərdi ki, fırça və tişə ustalarının "Əsrin faciəsi"nə diqqəti və şəhidlərin xatirəsinə ehtiramı ölçüyəgəlməzdir. Bu müsabiqənin əsas mükafatlarına layiq görülmüş əsərlər sırasında istedadlı fırça ustası Asif Azərellinin "Belə də haqsızlıq olar?" (2011) tablosunu erməni daşnaklarının Azərbaycan mədəniyyətinə yönəli vəhşilikləri özünün çox ifadəli əksini tapmışdır... Üfüqi kompozisiyada işğalçı erməni əsgərinin ayaqları və onun ətrafına səpələnmiş maddi-mədəniyyət nümunələrimizin, Qarabağın muğam ifaçıları ilə bağlı atributların (tar, kamança, qaval, xanəndələrin fotoları və s.) təsvirləri kifayət qədər diqqətçəkən və yağı düşmənə qarşı nifrət hissləri oyadıcıdır.

Respublikanın əməkdar rəssamı Fərman Qulamovun mükafata layiq görülmüş "Vəhşilik" (2012) tablosunda isə Xocalıda baş verən qətliam özünün obrazlı ifadəsini tapmışdır.

Yeri gəlmişkən, 2011 və 2012-ci illərdə keçirilən müsabiqə-sərgilərdə tamaşaçı rəğbəti qazanmış əsərlər sırasında Bəyim Hacıyeva, Sirus Mirzəzadə, Nazim Məmmədov, Tural Həsənli, Nəvai Metin, Nazim Rəhmanov, Həmzə Abdullayev, Nizami Hüseynov, Vidadi Əhmədov (hamısı rəngkarlıq), Mayis Əliyev, Rövşən Məmmədov, Etibar Aslanov, Nigar Babayeva, Həşim Elçiyev (hamısı qrafika), Zakir Əhmədov, Vüqar Quliyev, İslam Abdullayev, Cəlil Qaryağdı, Fuad Cəfərov, Sahib Quliyev (hamısı heykəltəraşlıq), Adil



Şıxəliyev və Rauf Əbdülhüseynoğlu (dekorativ-tətbiqi sənət) kimi sənətkarların yaratdıqları əsərlərini qeyd etmək olar.

Qarabağ müharibəsinə həsr olunmuş rəngkarlıq tabloları arasında Qazax rayonunda yaşayan istedadlı fırça ustası Nəcməddin Hüseynovun yaratdığı "Müharibəli Novruz" (1993) əsəri kompozisiyanın qeyri-adi atributlardan ibarət olması ilə başqalarından köklü surətdə fərqlənir. Rəssam təxəyyülünün sonsuzluğunu ifadə edən Novruz süfrəsində boşqabda yaşıl səmənini qırmızı lentlə bağlanmış bir dəstə güllənin, şəkərburaları isə qoşa əl qumbarasının əvəzləməsi həm də torpaqlarının azadlığı uğrunda ölüm-dirim mübarizəsinə qalxan xalqın mübarizə ruhunu, mənəvi yüksəkliyini nümayiş etdirdiyindən uzun zaman unudulmayacaq bir bədii-estetik tutumdadır...

Fərhad Xəlilovun "Qarabağ", Rafael Muradovun "Qaçqınlar" və "Qarabağ şikəstəsi", Nadır Bayrışovun "Şəhid", "Məcburi köç", Kərim Cəlalın "Zamanın izi", İsmayıl İsmayılovun "Mübariz", Natiq Fərəcullazadənin "Şəhid önündə" və "Ruhların gəzintisi", Na-




miq Məmmədovun "Faciə", Altay Hacıyevin "Xarı bülbül", Ələkbər Muradovun "Tənha gülün harayı", Fikrət İbrahimovun "Gələcək naminə", Qəyyur Yunusun "Qarabağ göyərçinləri, Kamal Əhmədin "Şərqin faciəsi" və Natiq İsmayılovun "Xocalı faciəsi" rəngkarlıq tablolarında, Sabir Çopuroğlunun "Xocalı harayı", Arif Hüseynovun "Qarabağnamə" silsiləsində, Bayram Qasımxanlının "Faciələrimiz" və "Təcavüz", Şamxəlil Məmmədovun "Xocalı qaçqını", Səbuhi Məmmədovun "Yaralı ana" və "Ayrılıq" qrafik lövhələrində, Fuad Salayevin "Döyüşçü", Vüqar İmanquliyevin "Milli qəhrəman Mübariz İbrahimov", Azad Əliyevin "Əbədiyyət", Tarverdi Quliyevin "Qarabağ motivi", Natiq Əliyevin "Yaralı", Məmməd Rəşidovun "Daşın göz yaşları" heykəltəraşlıq kompozisiyalarında artıq yaşanılmış ağrılara, duyulası itkilərə yaddaqalan "bədii güzgü" tutulduğundan rəngə, cizgiyə və bərk materiallara hopmuş tarixi həqiqətlər çox inandırıcı qəbul olunurlar...

Yaxşı haldır ki, Qarabağ probleminin Azərbaycan sərhədlərini aşdığı bir şəraitdə onun beynəlxalq aləmdə tanınmasına xarici ölkələrdə yaşayan rəssamlarımız da öz töhfələrini verməkdədirlər. Bu mənada qardaş Türkiyədə yaşayan yaradıcı soydaşlarımızın fəaliyyətini xüsusi vurğulamaq istərdik. 2008-ci ildə İstanbulda təşkil olunan "Yaralı Qarabağ" sərgisində nümayiş olunan çoxsaylı əsərlərdə Qarabağ müharibəsinə tutulan "bədii güzgü" kifayət qədər təsirli və ittihamedici idi. Ədalət Qaranın "Qarabağın maralı", "Xocalı faciəsi" və "Qarabağ şikəstəsi", Səmədağa Cəfərovun "Xəyanət", Sabir Mehdiyevin "Qarabağ atları", Əbülfəz Fərəcoğlunun "Təcavüz", Əli Verdiyevin "Xocalı soyqırımı", Məhəmməd Əliyevin "Xocalı" və "Əsir əsgər", Məhər Bayramoğlunun "Ana Vətən sevgisi", Əli Herisçinin "Savaş sfinksləri" triptixini, Vahid Talıbın "Labirint" və Teymur Rzayevin "Qayıdış" əsərlərində erməni təcavüzünü pisləyən, hər kəsi torpaq uğrunda müqəddəs döyüşə səsləyən bədii-mənəvi məqamlar kifayət qədər görünən idi.

Əlavə etmək lazımdır ki, Qarabağ mövzusu Rusiya Federasiyasında yaşayan Qüdrət Qurbanov, Rəhman Şıxəliyev və Əsgər Məmmədovun, təhsil sonrası taleyini Belorus Respublikası ilə bağlayan Kamil Kamalın, Almaniyada çalışan Əşrəf Heybətovun və başqalarının da son illər yaradıcılığında davamlı yer tutmaqdadır...

Azərbaycan təsviri sənətinin müasir mərhələsinin inkişafına öz əsərləri ilə xidmət edən sənətkarlarımızın müxtəlif nəsillərinin üzərinə əlavə yaradıcı və mənəvi bir yük düşüb. Bu da onların yaşadıqları zamanın, tuş gəldikləri hadisələrin bədii salnaməsini yaratmaqla, onu bədii-tarixi sənədə çevirib gələcək nəsillərə ötürməkdir. Yuxarıda haqqında qısa söz açdığımız əsərlərin timsalında demək olar ki, bu istiqamətdə yadda qalacaq işlər görülməkdədir...

Kaspi 2019.- 23-25 fevral.- S.24.